# LERİK: İLİN BİRİNCİ YARISINDA BÜTÜN SAHƏLƏRDƏ YÜKSƏLİŞ ƏLDƏ OLUNUB





Dağlar diyarında il-ildən uğurlu gəlir. Lerik şəhərinin və kəndlərin siması xeyli dəyişib, yeniləşib. İlin əvvəlindən abadlıq, quruculuq işlərinə start verilib. İqtisadiyyatın bütün sahələrində yeni uğurlara imza atılıb.

2015-ci ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda bu barədə ətraflı söhbət açıldı, geniş müzakirələr aparıldı.

Yığıncağı **Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov** açaraq ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən inamla, yüksək işgüzarlıqla davam etdirildiyini diqqətə çatdırdı.

İcra başçısı qeyd etdi ki, Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə rəhbəri dövlətin sosial-iqtisadi, idman, mədəniyyət və xarici siyasətində qazanılmış uğurlardan danışmış, qarşıya yeni, ümdə vəzifələr qoymuşdur.

Ölkədə aparılan ardıcıl, uğurlu iqtisadi islahatlar Lerik rayonunun da inkişafına təsir etmişdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər vaxtında icra edilir, əhalinin sosial rifah halı da yüksəlir.

İlin 6 ayında rayonda 355 nəfər işlə təmin edilmişdir. Bunun 175-i daimi iş yerləridir. Ümumilikdə isə Dövlət Proqramlarının icrası nəticəsində rayonda 9938 yeni iş yeri açılmışdır. Yaradılan iş yerlərinin 40 faizdən çoxu daimi iş yerləridir.

Kənd təsərrüfatı məhsulları istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artaraq 10 milyon 780,1 min manata, sənaye məhsulu 1,8 faiz artaraq 390,9 min manata, rabitə xidmətlərinin həcmi 8,4 faiz artaraq 246,8 min manata, sərnişin və yükdaşıma xidmətlərinin həcmi 3,2 faiz artaraq 1310,6 min manata çatdırılmışdır.

Əhaliyə göstərilən ticarət xidmətlərinin həcmi 3,4 faiz, adambaşına düşən pərakəndə əmtəə dövriyyəsi 3,8 faiz, pullu xidmətlərin həcmi 5,1 faiz, tikinti-quraşdırma işlərinin həcmi isə 11,1 faiz artmışdır.

Rayon dağlıq relyefdə yerləşdiyindən əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Keçən ilə nisbətən 36 hektar çox - 2026 hektar sahədə yazlıq əkin aparılmışdır. Taxıl əkilmiş 1196 hektar sahənin 996 hektarı biçilmiş, 2261 ton taxıl istehsal olunmuşdur. Biçin kampaniyası davam edir.

İribuynuzlu mal-qaranın sayı artaraq 16815 başa, qoyun və keçilərin sayı 128405 başa çatmışdır. Təsərrüfatlarda keçən ilin müvafiq dövrünə nisbətən 55,4 ton ət, 51,4 ton süd, 78,3 min ədəd yumurta və 1,5 ton yun çox istehsal olunmuşdur.

Əkin sahələrinin genişləndirilməsi, məhsuldarlığın artırılması üçün mövcud texnika azlıq edir. Nəticədə min hektarlarla torpaq ancaq biçənək kimi istifadə olunur.

Rayonda mindən çox təsərrüfatda bal istehsal olunur. Bal və bal məhsullarının sənaye üsulu ilə qablaşdırılmasına, satış məntəqəsinin yaradılmasına ehtiyac vardır. İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri hesabına problemlərin həllinə, arıçılığın intensiv inkişafına nail olmaq mümkündür.

Lerik şəhərində abadlıq və quruculuq işləri geniş vüsət almışdır. Şəhərin Şıxəli Qurbanov, Arzuman Əsədullayev küçələrində yollar genişləndirilir, istinad divarları, səkilər, işıqlandırma sistemi müasir üslubda yenidən qurulur, işıq dirəkləri, aşağı təzyiqli qaz xətləri dəyişdirilir. Şəhərin girəcəyində istirahət parkının tikintisində işlər sürətlə aparılır.



Ötən dövrdə iş adamları və sahibkarlar tərəfindən yeni ticarət və iaşə obyektləri tikilmiş, turizm və istirahət mərkəzlərində yenidənqurma, genişləndirmə işləri həyata keçirilmişdir. Peştətük kəndində şirə, Lerik şəhərində mebel sexlərinin və çörək zavodunun tikintisi davam etdirilir.

Son illər Lerik şəhərində onlarca inzibati idarə binası inşa edilmişdir. Sahibkar tərəfindən "AccessBank"ın rayon filialının üçmərtəbəli binası yaxın günlərdə tikilib istifadəyə veriləcəkdir. Yeni bina memarlıq xüsusiyyətlərilə şəhəri bəzəyəcək və əhaliyə bank xidmətləri göstərəcəkdir.

Bankın fəaliyyətə başlaması nəticəsində yeni iş yerləri açılacaq, kreditlə əlaqədar sakinlərin qonşu Lənkəran, Masallı rayonlarına gediş-gəlişinə lüzum olmayacaqdır. İlin sonunadək Lerik şəhərində Heydər Əliyev Fondunun vəsaiti hesabına 100 yerlik uşaq bağçası və rayon kənd təsərrüfatı idarəsi üçün yeni binalar tikilib istifadəyə veriləcəkdir.

Məktəb tikintisi sahəsində böyük uğurlara imza atılmışdır. Əvvəllər qəzalı vəziyyətdə olan, uyğunlaşdırılmış binalarda yerləşən məktəblər ümumi məktəblərin 90 faizini təşkil edirdisə, artıq bu rəqəm 25 faizə enmişdir. Müasir avadanlıqlarla təchiz edilən təzə məktəb binaları şəhər və kəndlərə xüsusi gözəllik gətirir.

Uzun illər təmirə ehtiyacı olan Sorsçay kənd məktəbi rayon təhsil şöbəsi tərəfindən əsaslı təmir olunaraq bu yaxınlarda istifadəyə verilmişdir. Boykəndil, Əvilə, Anbu, Pirasora kənd məktəblərinin tikintisi sürətləndirilmiş, tədris ocaqlarının yeni dərs ilində istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Ümumtəhsil məktəblərində tədris ili uğurla başa çatmışdır. Artıq ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarının həyəcanı arxada qalmışdır. Əvvəlki illərlə müqayisədə rayon üzrə sənəd verən məzunlar arasında qızlar çoxluq təşkil edir. İlkin məlumatlara görə 150 nəfərdən çox məzun tələbə adını qazanmağa daha şanslıdır.

Azərbaycan Prezidentinin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tədbirlər çərçivəsində 100 nəfər Naxçıvan məktəblisi Lerikdə rayonun tarixi, təbiəti, milli mətbəxi ilə tanış edilmişdir. Rayonun gəncləri də Naxçıvana səfər etmiş, qədim diyardan zəngin təəssüratla qayıtmışlar.

Ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən əhalinin kütləvi dispanserizasiyası yüksək səviyyədə başa çatmışdır. Heydər Əliyev Fondunun dəstəyi, Səhiyyə Nazirliyinin və Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə növbəti qanvermə aksiyası keçirilmiş, qan xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün xeyli qan ehtiyatı yaradılmışdır. İlin 6 ayında rayonda ana və bir yaşadək uşaq ölümü qeydə alınmamışdır.

Son illər rayonun elektrik təsərrüfatı xeyli yeniləşdirilib. "Azərişıq" ASC tərəfindən Lerik şəhəri, Cəngəmiran, Şingədulan, Mistan, Lüləkəran və Blaband kəndlərində yeni transformatorların quraşdırılmasına hazırlıq görülür. Lənkəran-Hamarat-Lerik 35 kv-luq elektrik hava xəttinin əsaslı təmirinə başlanılıb.

Lakin keçən əsrin 60-cı illərində inşa edilmiş 10 və 0,4 kv-luq elektrik hava xətləri uzun illər əsaslı təmir olunmadığından qəzalı vəziyyətə düşmüşdür. Elektrik şəbəkəsində montyor və digər texniki işçilər çatışmır. Əhalini dayanaqlı elektrik enerjisi ilə təmin etmək üçün xətlərin yenidən qurulmasına, kadr çatışmazlığının aradan qaldırılmasına ehtiyac vardır.

Rayonun yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı bir sıra işlər görülmüşdür. Ayrı-ayrı ərazilərdə 38 yaşayış məntəqəsi qazlaşdırılmış, 3669 ailə mavi yanacaqla təmin edilmişdir. Livədirqə, Anburdərə və Zərikücməco kəndlərinə qaz çəkilişi davam etdirilir.

Daxili imkanlar hesabına ayrı-ayrı yaşayış məntəqələrində 20-dən çox artezian quyusu qazılmışdır. "Azərsu" ASC tərəfindən Soru, Gürdəsər və Zenoni kəndlərində qazılan quyulardan ancaq Soru kəndindəki quyu istifadəyə verilmişdir. Gürdəsər kəndində qazılmış quyu baxımsızlıq üzündən batmışdır. Kənddə işlərin vaxtında başa çatdırılmaması, 200 min manatdan çox dövlət vəsaiti hesabına çəkilmiş su xətlərinin baxımsız qalması narahatçılıq doğurur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində 26 kilometrlik Lerik-Qosmalian-Kəlvəz avtomobil yolu əsaslı şəkildə yenidən qurulmuş, uzunluğu 36 kilometr olan Noda-Şingədulan-Xanagah avtomobil yolunun 18 kilometrlik hissəsinə isti asfalt döşənmişdir. Yolun tikintisinin tam başa çatdırılması üçün müvafiq tədbirlər görülür.

Rayon icra hakimiyyətinin daxili imkanları, iş adamlarının və kənd sakinlərinin köməyilə kəndara yollarında təmir-bərpa işləri aparılır. Kəndlərdə yeni körpülərin tikintisinə 400 min manatdan çox vəsait xərclənmişdir.

Əhaliyə göstərilən rabitə xidmətinin həcmi və səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli yüksəlmişdir. Almu və Mistan kəndlərinin hər birində 64 nömrəlik yeni elektron ATS-lər quraşdırılmışdır. Rayonda mövcud ATS-lər müasir tipli elektron ATS-lərlə əvəz olunmuşdur. ATS-lərin elektronlaşdırılması əhalinin internet xidmətindən istifadəsini asanlaşdırmışdır.

Rabitə sahəsində mövcud problemlər sakinləri narahat edir. Rayonun 10 kəndində poçt şöbəsi üçün təzə binaların tikintisinə, telekommunikasiya qovşağının və rayon poçtamtının yerləşdiyi binanın əsaslı təmirə, 20-dən yuxarı yaşayış məntəqəsinin telefonlaşdırılmasına ciddi ehtiyac vardır.

Rayon icra hakimiyyəti tərəfindən imtiyazlı kateqoriyadan olan şəxslərə xüsusi qayğı göstərilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Barzavu və Cəngəmiran kəndlərində iki şəhid ailəsi üçün fərdi yaşayış evləri inşa edir. İlin sonunadək şəhid ailələri və Qarabağ əlilləri üçün daha 8 fərdi evin tikilməsi nəzərdə tutulmuşdur.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə I "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində yazlıq ağacəkmə kampaniyası uğurla başa çatmışdır.

Ölkənin və rayonun ictimai-siyasi, mədəni həyatında xidmətləri olan leriklilərin yubileylərinin, yaradıcılıq gecələrinin, anım mərasimlərinin keçirilməsi ənənə halını almışdır. Bu yaxınlarda yazıçı-dramaturq Məmmədhüseyn Əliyevin və II Dünya müharibəsinin iştirakçısı, ağsaqqal Daşdəmir Paşayevin 90 illik, şair-publisist Ağacəfər Həsənlinin 60, şair Balayar Sadiqin 50 illik yubileyləri təntənəli şəkildə qeyd olunmuşdur.

Son illər rayonda çalışan dövlət qulluqçuları, təhsil və səhiyyə işçiləri, sadə peşə adamları Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə fəxri adlara, orden və medallara layiq görülmüşlər. Bu yaxınlarda uzun illər rayonun ictimai-siyasi, mədəni və sosial həyatında fədakarlıqla, işgüzarlıqla çalışan Cəlil Baxşıyev Azərbaycan Prezidentinin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Bu, cənab Prezidentin rayonun dövlət qulluqçularının səmərəli fəaliyyətinə yüksək qayğısının əyani nümunəsidir.

Əhalinin müraciətlərinə vaxtında, obyektiv və həssaslıqla baxılmasına diqqət artırılmışdır. Bunun nəticəsidir ki, Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatına ilin birinci yarısında 470 yazılı müraciət, keçən ilin müvafiq dövrünə nisbətən 173 müraciət az, o cümlədən Prezident Administrasiyasından 27 müraciət az daxil olmuşdur. Rayon icra hakimiyyəti başçısının qəbulunda 519 nəfər olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə müraciət edən vətəndaşların sayı 32 nəfər azalmışdır. Ərazilərdə keçirilən səyyar qəbullarda isə 213 nəfərin təklif və müraciətlərinə baxılmışdır. Bu, əvvəlki ilin müvafiq dövrünə nisbətən 77 müraciət azdır.

Şura iclasında Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov, rayon gənclər və idman idarəsinin rəisi Rövşən Rüstəmov, rayon əhalinin sosial müdafiəsi mərkəzinin direktoru Malik Mirzəyev, Lerik rayonu üzrə maliyyə idarəsinin rəisi Elman Abbasov, rayon elektrik şəbəkəsinin rəisi Şəfayət Hacıyev çıxış etmiş, görülmüş işlər barədə məlumat vermişlər.

Şura iclasında Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyevə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı təqdim olunmuşdur.

Şura iclasını Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov yekunlaşdıraraq rayonun icra strukturları qarşısında duran vəzifələrdən danışmışdır.

Yığıncaqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

*Əlisəfa HƏSƏNOV,*
*"Respublika".*